# AZƏRBAYCANIN QARABAĞ TARİXİ-COĞRAFİ BÖLGƏSİNİN GEO VƏ EKOTURİSTİK POTENSİALI

**T.N.KƏNGƏRLİ, Z.T.İMRANİ, I.T.KƏNGƏRLİ**

Gözəl təbiətə malik Qarabağ tarixi-coğrafi bölgəsi (Qarabağ TCB) açıq səma altında təbiət muzeyi olmaqla, hüdudlarında geosaytların – müxtəlif (yarımsəhradan yüksəkdağlıq-nivaladək) landşaftlarla uyğunlaşan təbii irsin bir çox nadir geoloji və geomorfoloji abidələrinin (geosaytların) yerləşməsi ilə səciyyələnir. Geosaytların əksəriyyəti bölgənin 30 ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalı altında olmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dağlıq və dağətəyi ərazilərində qeydə alınmışdır. Bunlardan yalnız Azıx, Tağlar, Xan, Qahal və Divlər Sarayı mağaraları, həmçinin Kəlbəcər şəhəri ətrafı bazaltların sütunvarı bölünməsi Azərbaycan dövləti tərəfindən rəsmi qorunaraq Nazirlər Kabinetinin 16.03.1982-ci il tarixli 167 saylı qərarı ilə təsdiq edilmiş mühafizə olunan geoloji təbiət abidələri siyahısına salınmışdır.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi (27.09-10.11. 2020) və 2023-cü ilin 19-20 sentyabr tarixli antiterror əməliyyatı nəticəsində bölgənin sosial-iqtisadi bərpası və dayanıqlı inkişafı istiqamətində hazırda genişmiqyaslı işlər həyata keçirilir. Sözsüz ki, dayanıqlı inkişafın istiqamətlərindən biri də bölgənin təbiət müxtəlifliyinə əsaslanan turizm fəaliyyəti ola bilər və olmalıdır.

Bölgənin müəlliflər tərəfindən həyata keçirilmiş geo- və ekoturizm potensialının kompleks qiymətləndirilməsi burada təbii rekreasiya resurslarından istifadə etməklə sosial-iqtisadi inkişaf və ətraf mühitin bərpası yollarının müəyyən edilməsinə imkan yaradır. Tarixi-mədəni irs obyektləri ilə yanaşı zəngin geo- və ekoturizm potensialının mövcudluğu bölgədə YUNESKO-nun Geoelmlər və Geoparklar Beynəlxalq Proqramının [6] kriteriyalarına tam cavab verən dünya səviyyəli geoloji parkın yaradılmasına imkan verir.

**Geoturizm potensialı**

Geoturizm potensialı Qarabağ TCB ərazisində nadir geoloji obyektlərin zənginliyi və müxtəlifliyi ilə müəyyən edilir **(şəkil 1).**



**Şəkil 1. Qarabağ-Şərqi Zəngəzur regionunun geoturizm potensialı xəritəsi. Tərtib edəni – T.N.Kəngərli**

Geoloji abidələr müxtəlif yaşlı və mənşəli geoloji proseslərin əlaməti olan, çox vaxt relyefdə kəskin ifadə olunan litoloji-stratiqrafik, tektonik-maqmatik, filiz-petroqrafik, hidrogeoloji obyektlər, həmçinin az rast gəlinən mineral xammalın növləri ilə təmsil edilir [1-5]. Faydalı qazıntılardan, ölkədə yeganə Keçəldağ dəvə gözü yatağı və azqiymətli daşların tək-tək rast gələn təzahürləri xüsusi maraq doğurur. Ərazidə kifayət qədər geniş yayılmış müxtəlif yaşlı və tərkibli vulkanik konuslar və intruziv günbəzlər, mineraloji-petroqrafik təbiətli geoloji obyekt-



**Şəkil 2. Qarabağ yaylasında vulkan konusu. Qılınclı dağı (3594 m)**

lər olmaqla, həm də müxtəlif ölçülü, hərdən yüzlərlə metr hündürlüyə çatan dəyirmi qübbəvarı və sərt yamaclı relyef formaları kimi xarakterizə edilir (şəkil 2). Qarabağ yaylasını əmələ gətirən Dördüncü dövrün bazalt tərkibli lava axınlarındakı sütunvarı bölünmələr xüsusi gözəlliyi ilə seçilir. Nadir obyektlər sırasına həmçinin Qarabağ yaylasında müşahidə edilən və cavan andezibazalt lava axınlarının şaxta aşınmasının məhsulu olan "çınqıllar" aid edilir (şəkil 3).

Hidrogeoloji abidələrə mineral və termal bulaqlar aid edilir; bunlar əsasən Tərtərçay, Minkənd-Əhmədli, Turşsu-Şırlan və Tuğ hidrogeoloji əyalətlərində cəmləşir.



**Şəkil 3. Qarabağ yaylasında Dördüncü dövr andezibazalt lava axınlarının şaxta aşınmasının məhsulu olan "çınqıllar"**

Məşhur İstisu, Bağırsaq, Minkənd, Turşsu, Şırlan, Qoturlu bulaqlar qrupunun mineral suları ölkə daxilində və xaricdə şöhrət qazanmışlar (şəkil 4,5). Hidrokimyəvi tərkibinə və balneoloji xassələrinə görə bunlar Çexiyanın "Karlovı Varı", Fransanın "Vişi", Almaniyanın "Ems", Şimali Qafqazın "Jeleznovodsk" məşhur mineral sula-



**Şəkil 4. Qarabağ yaylasında Bağırsaq qrupu mineral su bulağı**



**Şəkil 5. Qarabağ yaylasında İstisu qrupu mineral su bulağı**

rının analoqları olmaqla hidrokarbonatlı, hidrokarbonatlı-xloridli, hidrokarbonatlı-sulfatlı tərkibə malik karbonqazlı sulardır.

Ekzotik qayalar təbii amillərin – günəşin, yağış və küləyin çökmə və maqmatik komplekslərin çıxışlarına fəal erozion təsirinin son məhsuludur (şəkil 6,7). Bu proses nəticəsində müxtəlif kövrəkli süxurlar qeyri-bərabər dağılmaya məruz qalır və onların daha davamlı fraqmentləri çox vaxt qəribə görkəm alır. Ekzotik qayalar regionun dağlıq ərazilərində müşahidə edilir və onları əmələ gətirən süxurların yaşı Orta Yuradan başlamış müasir dövrə qədərdir. Bunlardan Sağsa-ğanqaya, Hi-



**Şəkil 6. Qarabağ yaylasında, Tərtət çayının sol sahilində (Kəlbəcər şəhəri ətrafında) andezibazalt sütunları**



Şəkil 7. Laçınqaya



Şəkil 9. Qarabağ silsiləsinin şimal-qərb hissəsində Laçındağ yüksəkliyi (2261 m)

nalqaya, Laçınqaya, Dəlikdaş, Papaqqaya, Koroğlu və bir sıra digər qayalar və qaya qrupları daha çox cəlbedici xüsusiyyətə malikdir.

Orta və yüksək dağlıq ərazilərə xas olan füsunkar zirvələr (Murovdağ, Gamış, Hocaz və d.) yerli landşaftda hakim mövqe tutur və təkraredilməz görünüşü ilə fərqlənərək ətraf mənzərəyə xüsusi gözəllik verir (şəkil 8,9).

Torpaq piramidaları – çeşidlənməmiş qırıntı materialı saxlayan boş süxurlardan (moren, töküntü, uçqun, çay terrası, sel konusu və s. əmələgəlmələr) təşkil olunmuş,



Şəkil 8. Qarabağ silsiləsinin cənub-şərq hissəsində Böyük Kirs dağı (2725 m)

tavanında iri qayma və ya qənbər yerləşən (tac qaymaları), yağış və ya qar suları ilə yuyulma prosesinin nəticəsi olan, qəribə görkəmə malik sütun və ya ensiz konus formalı erozion qalıq relyef formalarıdır. Qarabağ ərazisində bunların mütləq əksəriyyəti Həkəri çayı və onun qollarının dərələrində müşahidə edilir və cavan vulkanik brekçiyaların, töküntü və uçqunların eroziyası nəticəsində əmələ gəlmişdir.

Mağaralar regionun dağ ətəklərində, həm də orta və yüksək dağlıq ərazilərində xeyli sayda yayılmış əhəngdaşı karstı (Azıx, Tağlar, Xan və s.) və psevdokarst (Buz, Zar və s.) tipləri ilə təmsil edilir (şəkil 10). Ölçülərinə görə onlar çox böyük olmasalar da, son dərəcə rəngarəngdirlər. Mağaraların bəziləri öz daxili quruluşu ilə fərqlənir, bəziləri isə ibtidai insanlara sığınacaq yeri kimi xidmət göstərmişdir. Sonuncu fakt yerli əhalinin genetik yaddaşında saxlanıldığından müqəddəs "pir" statusu qazanaraq sitayiş yerlərinə çevrilmişdir. Mağaraların bir qismi xüsu-siyyətlərinə görə nadir təbiət abidələrinə aid edilir. Bunlardan ən məşhuru – dünya şöhrətli Azıx ma-



Şəkil 10. Azıx mağarası

ğarası bəşəriyyətin ilkin tarixinin böyük hissəsini əhatə edən mədəniyyət təbəqələrinin xronoloji diapazonuna görə (1,8 mln il – "çaqıldaşı mədəniyyətindən" tutmuş "mustyeyə" qədər) dünyada yeganə mağaradır. Ermə-

ni işğalı dövründə, 2001-ci ildən etibarən mağarada İngiltərə, İspaniya, İrlandiya və Ermənistan arxeoloqları qanunsuz qazıntılar aparmışlar.

Kanyon və dərələr hidroloji və tektonik amillərin təsiri altında dağ yamaclarından axan bəzi çayların sıx



**Şəkil 11. Zabuxçay kanyonu**

süxur massivlərini yardığı nadir gözəlliyə malik relyef formalarıdır (şəkil 11). Kanyonların divarları dik və sıldırımlı olmaqla əksər hissəsinin dibini çay yataqları tutur (Qarqar, Tərtər, Tutqun, Qamışlı və s. çayların kanyonları). Xəritədə ayrılan dərələrin nisbətən maili yamacları və dibi əksər hallarda toxunulmamış meşələrlə (Torağay, Suqovuşan, Murovsu və s. çay dərələri) və yaxud alp çəmənlik bitkiləri (Meydançay, İldırımsu, Bağırsaqdərə, Çaylaq və s. çay dərələri) ilə örtülmüşdür.

Hidroloji abidələr siyahısına öz parametrləri, hidrodinamik rejimi və suların kimyəvi xassələri ilə



**Şəkil 12. Böyük Alagöl**

seçilən dağ gölləri və şəlalələr daxildir. Bunlardan Qarabağ yaylasındakı Zalxagöl (3062 m), Pəriçınqıl Alagölü (2974 m), Qaragöl (2961 m) və Cilligöl (2934 m) hövzələri regionun ən yüksəkdağlıq, insanın əli dəyməyən təbii su tutumlarıdır (şəkil 12). Ətraf landşaftın bənzərsiz gözəlliyi ilə fərqlənən Göygöl qrupu gölləri təkcə Azərbaycanda deyil, onun sərhədlərindən çox-çox uzaqlarda da məşhurdur. Kür-Araz ovalığında Mil düzündə yerləşən Ağgöl isə "ornitoloji oazis" olmaqla, ərazisi bir sıra nadir və nəsli kəsilməkdə olan subataqlıq quşlarının həm qışlama, həm də yuvalama yeridir.

Qarabağın çox da hündür olmayan (10-15 m-dək) şəlalələri təbiətin yaratdığı möcüzələrdən biridir (şəkil



**Şəkil 13. İldırımsu çayında şəlalə**

13). Bunların suyu çay yatağında bərk süxurdan əmələ gəlmiş çıxıntı üstündən dik tökülür, bəziləri isə bir neçə çıxıntıdan tökülərək şəlalələr kaskadı əmələ gətirir. Bunlardan bir-birinin təkrarı olmayan İldırımsu, Hapım, Cağadüz və s. şəlalələr öz cazibədar görünüşü ilə xüsusi fərqlənir.

**Ekoturizm potensialı**

Ekoturizm ətraf mühitə ziyan vermədən və təbii proseslərə müdaxilə etmədən təbiətin nisbətən toxunulmamış, müxtəlif təbii landşaftları, su ehtiyatları, vəhşi flora və fauna nümunələri olan yerlərə səyahətlə bağlı aktiv istirahət növüdür. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının dağlıq hissələrinin landşaft-iqlim şəraiti və kurort-rekreasiya ehtiyatları (şəkil 14) müxtəlif ekoturizm növlərinin inkişafı ilə bağlı Qarabağ TCB-nin zəngin potensialını müəyyən edir [7,8,9]

1. Təbiət turizmi bir (haykinq) və ya bir neçə gün ərzində (trekkinq) piyada və ya atla gəzinti zamanı cansız təbiətə səyahət və açıq havada istirahəti nəzərdə tutur. Bu əsas etibari ilə geoloji abidələri, müxtəlif relyef formalarını (əzəmətli zirvələr, ekzotik qayalar, kanyonlar və



**Şəkil 14. Qarabağ-Şərqi Zəngəzur regionunun geoturizm potensialı xəritəsi. Tərtib edəni – Z.T. İmrani**

dərələr, torpaq piramidaları), dağ göllərini və şəlalələri ziyarət etməklə geoloji və geomorfoloji yönümlü turizmdir. Geoloji-geomorfoloji irs və hidroloji obyektlərin əksəriyyəti Şərqi Zəngəzur iqtisadi rayonunun ərazisində yerləşir, Qarabağ iqtisadi rayonu isə bəzi geoloji abidələr, mağaralar, bir sıra qayalı relyef formaları və alçaq şəlalələrlə təmsil olunur.

2. Macəra (ekstremal) turizminə qayayadırmanma, su (raftinq, su xizəyi) və xizək idmanı, dağ velosipedi, yamac paraşütü və mağara turizmi (speleoturizm) aiddir. Şərqi Zəngəzur iqtisadi rayonunda ekoturizmin bu növünün inkişaf etdirilməsi üçün potensial imkanlar var. Burada Qarabağ TCR-in orta və yüksək dağlıq silsilələri, bir-birindən fərqlənən sıldırımlı və dik yamaclar, uzunmüddətli qar örtüyünə malik olan ərazilər, həmçinin Tərtər, Tutqun çaylarının və onların qollarının raftinq üçün yararlı dərin kanyonları yerləşir.

3. Bioturizm mühafizə olunan təbiət ərazilərinə, ayrı-ayrı təbiət obyektlərinə, ekzotik bitki nümunələrinə və nadir vəhşi təbiətə malik olan ərazilərə səfərdir. Qarabağ TCR ərazisində təbii qoruqlara aşağıdakılar aiddir: 1 – YUNESKO-nun müvafiq Konvensiyası çərçivəsində su-bataqlıq ekosistemlərini qorumaq üçün yaradılmış Ağgöl Milli Parkı; 2 – buzlaq mənşəli gölün ekoloji sisteminin mühafizəsi obyekti kimi yaradılmış Qaragöl qoruğu; 3 – dünyanın ən böyük şərq çinarları meşəciyinin qorunub saxlanması məqsəd ilə yaradılmış, lakin Ermənistan tərəfindən işğal zamanı böyük ziyan dəymiş Bəsitçay qoruğu; 4 – Qafqaz qırqovulu, turac və adi dovşan populyasiyalarının qorunduğu Bərdə yasaqlığı; 5 – unikal dərman, endemik və nadir bitkilərin mühafizəsi üçün yaradılmış Daşaltı yasaqlığı; 6 – bezoar keçisi, qonur ayı, çöl donuzu və digər heyvan populyasiyalarının mühafizə edildiyi Laçın yasaqlığı; 7 – qonur ayı, bezoar keçisi, çöl donuzu, cüyür, qırqovul və digər heyvanların qorunması üçün yaradılmış Qubadlı yasaqlığı; 8 – tuqay meşələrinin nadir təbii kompleksinin mühafizəsi və bərpası üçün yaradılmış Arazboyu yasaqlıq.

Bərdə yasaqlığı istisna olmaqla, qalan yasaqlıqların flora və faunası Ermənistan silahlı qüvvələri tərəfindən uzunmüddətli işğaldan sonra bərbad vəziyyətdədir və onların əvvəlki vəziyyətə qaytarılması üçün böyük səylər tələb olunur. Qarabağ TCR ərazisində mühafizə olunan təbiət ərazilərindən başqa, nadir ağac növləri, həmçinin ulu əcdadlarımız tərəfindən əkilmiş yaşı 150-dən 2040 ilə qədər olan çoxillik tək ağaclar var. Təəssüflər olsun ki, əvvəllər Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə yerləşən bitki örtüyünün əhəmiyyətli hissəsi erməni qəsbkarları tərəfindən qırılıb və ya yandırılmışdır.

4. Müalicə turizmi yerli zəngin təbii və sağlamlaşdırıcı resurslardan istifadəyə əsaslanır. Bunlara daxildir: 1 – iqlimterapiya – müəyyən bir orqanizm üçün əlverişli iqlimin köməyi ilə müalicə; 2 – balneoterapiya – mineral sularla müalicə, Şərqi Zəngəzur iqtisadi rayonu bu ehtiyatlarla olduqca zəngindir; 3 – aeroterapiya – dağ havasından istifadə edərək sağlamlıq proseduru; 4 – mağara terapiyası (speleoterapiya) – mağaraların mikroiqlimindən istifadə edərək müalicə; 5 – fitoterapiya – sağlamlıq prosedurları zamanı bitkilərin müalicəvi xüsusiyyətlərindən istifadə; 6 – helioterapiya – müalicəvi və profilaktik məqsədlər üçün günəş vannalarının qəbulu.

Yuxarıda qeyd olunan geo- və ekoturizm növlərinin, eləcə də gələcəkdə ( işğal zamanı Ermənistan tərəfindən dağıdılmış sosial-iqtisadi mühitin bərpasından sonra) aqroturizm və etnoturizmin inkişafı ətraf mühitin və yerli əhalinin sosial həyat səviyyəsinin davamlı olaraq yüksəlişinin təmin edilməsi şərtlərindən biridir.

## ƏDƏBİYYAT

1. Azərbaycanın geologiyası. Cild VI. Faydalı qazıntılar. Bakı: “Nafta-Press”, 2005 (rus dilində).
2. Azərbaycanın geologiyası. Cild IV. Tektonika. Bakı: “Nafta-Press”, 2005 (rus dilində).
3. Azərbaycanın geologiyası. Cild VIII. Hidrogeologiya və mühəndisi geologiya. Bakı: “Nafta-Press”, 2008 (rus dilində).
4. Azərbaycanın geologiyası. Cild I. Stratiqrafiya, litologiya, tektonika. Bakı: “Elm”, 2015.
5. Azərbaycanın geologiyası. Cild I. Maqmatizm, bərk faydalı qazıntılar, hidrogeologiya, mühəndisi geologiya. Bakı: “Elm”, 2015.
6. International Program on Geosciences and Geoparks of UNESCO – Paris, 2015.
7. Imrani Z.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ekoturizm potensialı və ondan istifadə yolları – Coğrafiya və təbii resurslar, №2 (20), Bakı, 2023, s.72-77.
8. İmrani Z.T., Hidayətli G.Ə. Qarabağın turizm-rekreasiya ehtiyatları və onların inkişaf etdirilməsində idman turizminin rolu // “Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər” mövzusunda V Beynəlxalq elmi-praktik konfrans. Bakı: 5 noyabr, 2021. s. 17-19.
9. Qarabağ və Şərqi Zəngəzurun coğrafiyası: təbii-coğrafi şərait və sosial-iqtisadi inkişaf potensialı. Bakı: “Optimist”, 2021.